Azərbaycan Arxeologiyası Cild 21 № 1, 2018, 8-11
Xəzər Universiteti Nəşriyyatı DOI: 10.5782/2218-0346.2018.21.1.8

# Ön söz - Erkən əkinçilik, "Neolit inqilabı" və Azərbaycan

Bəşəriyyətin keçdiyi mühüm tarixi mərhələlərdən biri Neolit - Yeni daş dövrüdür. Bu dövr ilk dəfə 1865-ci ildə ingilis alimi, Darvin təliminin ardıcıllarından olmuş Lebbok tərəfindən müəyyən edilmişdi. Alim neolit dövrünün əsas xüsusiyyətinin cilalı daş alətlərin meydana çıxmasında görmüşdü. Lakin Neolit dövrü minillikləri əhatə etmiş Daş dövrünün sonuncu və yüksək inkişaf mərhələsi olmaqla iqtisadi, ictimai və mədəni sahələrdə daha böyük kəşflər və dəyişikliklərlə səciyyələnmiş, mövcud qədim cəmiyyətlərin gələcək mütərəqqi inkişaf yolunu müəyyənləşdirmişdi.

İbtidai daşişləmə texnologiyasında görünməz inkişaf və tərəqqi, məişət və təsərrüfata məhsuldarlığı ilə seçilən cilalı və yığma dişli mükəmməl əmək alətlərinin tətbiqi, bol və sabit qida məhsulları əldə etməyə əsas verən, oturaq həyat tərzi doğuran əkinçilik və maldarlıq məşğuliyyətinin mənimsənilməsi – istehsal təsərrüfatına keçid Neolit dövrünün ən böyük nailiyyəti kimi bəşəriyyəti həmişəlik təbiətin asılılığından çıxarmışdı.

Dulusçuluğun kəşfi ilə yeni xassəli: sukeçirməz və oda davamlı bişirilmiş gil qablardan geniş və səmərəli istifadə öz növbəsində erkən əkinçi-maldar əhalinin həyat tərzinin və rifahının yüksəlməsinə, kəmiyyət artımına səbəb olmuşdu.

Paleodemoqrafiya sahəsindəki araşdırmalarla müəyyən edilmişdir ki, istehsal təsərrüfatına keçidlə təkcə min il ərzində Yer kürəsinin əhalisi 16 dəfə artmış və 80 milyonu ötmüşdü. Demoqrafik dəyişiklik özünü təkcə əhali sayının çoxalmasında yox, onun sıxlığının artmasında və geniş ərazilərin mənimsənilməsi də əks etdirmişdir.

Ümumilikdə, Neolit dövründə istehsal iqtisadiyyatına - möhkəm təsərrüfat sisteminə keçid kardinal dəyişikləri ilə inqilabi xüsusiyyətlər daşımış, daha üstün yeni tarixi mərhələni doğurmuşdu. Təsadüfi deyil ki, mütərəqqi ingilis alimi, Qərbin ilk marksist arxeoloqu Vir Qordon Çayld Neolit dövründəki istehsal təsərrüfatına keçidi İngiltərənin XVIII-XIX əsrlərdəki sənaye inqilabı və çevrilişi ilə müqayisə edərək "Neolit inqilabı" adlandırmışdı. Məlumdur ki, bu anlayış indiyədək öz tarixi əhəmiyyətini saxlamaqdadır.

Qərb dünyasının ən nüfuzlu arxeoloq alimi kimi böyük şöhrət tapmış Vir Qordon Çayld 1892-ci ildə, aprel ayının 14-də uzaq Avstraliyanın Sidney şəhərində anadan olmuşdur. Milliyyətcə şotland olan Qordon Çayld Sidney Universitetini bitirmiş, sonra isə Oksford Universitetinin klassik tarix bölməsində oxumuşdu. Gənclik illərində o, sosializm ideyaları ilə ma-

raqlanmış və hətta bir müddət Sidneyin Leyborist hökumətində məmurluq etmişdi.

Elmi axtarışları hər şeydən üstün tutan Qordon Çayld çox keçmədən siyasi fəaliyyətdən uzaqlaşmışdı. 1922-ci ildə o, İngiltərəyə köçmüş, Edinburq şəhərində məskunlaşmışdı. Onun tarix və arxeologiya sahəsindəki ilk elmi araşdırmaları həmin vaxtlarda başlamışdı. Tezliklə səyahətə çıxan tədqiqatçı Mərkəzi və Şərqi Avropanın muzeylərində saxlanılan arxeoloji materiallarla yaxından tanış olmuş, az vaxt içərisində onların dəqiq elmi kataloqunu tərtib etmişdi.

Qordon Çayldın ilk çöl axtarışları da bilavasitə ötən əsrin 20-ci illəri ilə bağlı olmuşdu. O, Orkney adalarında arxeoloji qazıntılar aparmış, Neolit dövrünə aid böyük elmi əhəmiyyət kəsb edən nadir abidələr aşkar etmişdi.

Gənclik illərindən marksist əqidəli peşəkar tarixçi-arxeoloq kimi tanınan Qordon Çayldın elmi yaradıcılığında Qərbdə dəbdə olan diffuzionizm, neoevolyusionizm, stadial-mərhələli inkişaf və digər təlimlər üstün yer tutsalar da Marksist metodologiya ilə sıx bağlılıq onun elm dünyasındakı yüksək nüfuzunu heç də azaltmamışdı.

İstedadlı alim 1925-ci ildə çap etdirdiyi “Avropa sivilizasiyasının kökləri önündə” adlı kitabı ümumdünya elmi ictimaiyyəti tərəfindən yüksək qiymətləndirilmiş, az vaxt içərisində 6 dəfə çap olunmuş, ona böyük şöhrət gətirmişdi. Həmin əsərdə Qordon Çayld dəyərli arxeoloji mənbələrə əsaslanaraq Avropa sivilizasiyasının tarixi köklərini müəyyən etməklə gələcək yüksək inkişafa örnək olan Yeni Avropanı sənaye inqilabına sövq etdirən misilsiz amilləri üzə çıxarmışdı. Diqqətəlayiq haldır ki, Britaniya diffuzionizminin lideri kimi tanınan tədqiqatçı alim Avropanın mədəni tarixi inkişafında Qoca Şərqin də təsirini etiraf etməkdən çəkinməmişdi. Böyük alimin “Qoca Şərq yeni qazıntılar ziyasında əsəri” bu cəhətdən xüsusi ilə diqqətə layiq olmuşdu.

1927-ci ildə Edinburq Universitetinə daimi professor seçilən Vir Qordon Çayld orada arası kəsilmədən 20 il arxeologiya elminin ən ümdə problemlərilə bağlı mühazirələr oxumuş, geniş elmi-araşdırmalar aparmış, dəyərli əsərlər yazmışdı. O, eyni zamanda Edinburq şəhərindəki Kral Antropoloji İnstitutunun kitabxanasında rəsmi şəkildə kitabxanaçı işləmişdi. Qordon Çayldın həmin illərdə çap etdirdiyi “İnsan özünü özü düzəldir” (“Man Makes Himselt” – 1936) və “Tarixdə nə baş vermişdir” (“What Happened in History” – 1942) kitabları yenə də dünyanın elmi ictimaiyyəti tərəfindən yüksək qiymətləndirilmiş, çoxsaylı pərəstişkarları üçün əsl mənada misilsiz töhfə olmuşdu.

1946-cı ildə Londona köçən Qordon Çayld orada elmi yaradıcılıq imkanlarının tükənməzliyini bir daha nümayiş etdirmişdi. İbtidadi icma tarixinin ən çətin silsilə problemləri, dünya arxeologiyasının həll olunmamış

məsələləri daim axtarışlarda olan istedadlı alimin qlobal tədqiqatları üçün əsas olmuşdu. Qüdrətli alimin İkinci Dünya müharibəsindən sonrakı illərdə Qərb ölkələrində və Amerikada təkrar-təkrar çap olunan elmi əsərləri buna bariz nümunədir.

Marksis əqidəli Qordon Çayld elmi yaradıcılığının ilk vaxtlarından sovetlər ölkəsində aparılan arxeoloji qazıntılara və araşdırmalara böyük maraq göstərmiş, onların nəticələrini dəqiq izləmişdi. Görülən işlərlə yaxından tanış olmaq üçün o, bir neçə dəfə Rusiyada-Moskvada olmuş, hətta rus dilini dərindən öyrənməyə təşəbbüs göstərmişdi. Lakin ötən əsrin 40-cı illərin sonlarında, 50-ci illərin isə əvvəllərində görkəmli dilçi alim N.Marrın təliminə qarşı başlanan təqiblər və Nikita Xuruşovun Sov. İKPN-nın XX qurultayında şəxsiyyətə pərəstişlə bağlı məkrli çıxışı onun dünyagörüşünü və marksis əqidəsini əsaslı şəkildə sarsıtmışdı.

1957-ci il oktyabrın 19-da görkəmli alim faciəli şəkildə vəfat etmişdi. Güman olunur ki, sarsıntı keçirən böyük alim gənclik illərində sevə-sevə gəzdiyi Sidney şəhəri yaxınlığındakı hündür qayadan özünü atıb intihar etmişdi.

Qordon Çayldın müəyyən etdiyi “Neolit inqilabı”nın arealı çox geniş və rəngarəngdir. İkinci Dünya Müharibəsindən sonra başlanan geniş miqyaslı arxeoloji qazıntılarla Avrasiya məkanının bir çox regionlarında: Yaxın və Uzaq Şərqdə, Balkan Yarımadasında, eləcə də Mezoamerika və Peruda erkən istehsal iqtisadiyyatını əks etdirən nadir arxeoloji komplekslər üzə çıxarılmışdı. Onların içərisində Carmo, Tell-Əs-Sultan (İelixon), Çayönü, Çatal-Höyük və digər abidələr indiyədək öz yüksək elmi-tarixi əhəmiyyətlərini saxlamaqdadırlar. Qeyd etmək lazımdır ki, həmin abidələrin üzə çıxarılmasında və öyrənilməsində dünya şöhrətli qərb alimləri R.Breyvud, K.Kenon, H.Çembel, M.Özdoğan, C.Kirkbrayt, C.Mellart, R.Dayson və başqalarının böyük xidmətləri danılmazdır.

“Neolit inqilabı” əlverişli torpaq və iqlim şəraiti ilə seçilən, eləcə də zəruri mədəni-tarixi inkişaf səviyyəsində olan Azərbaycanın tarixi ərazilərindən də yan keçməmişdir. Hələ ötən əsrin 40-50-ci illərində Cənubi Azərbaycanda aşkar olunan və öyrənilən çoxtəbəqəli Göytəpə, Həsənlitəpə, Firuztəpə və digər qədim yaşayış yerləri neolit dövrünə aid yüksək əkinçilik mədəniyyətlərini əks etdirən ilk abidələr olmuşdur.

1951-ci ildə Şimali Azərbaycanda, Naxçıvan şəhəri yaxınlığındakı çoxtəbəqəli Kültəpə abidəsində başlanılan arxeoloji qazıntılar bütün Cənubi Qafqaz üçün əlamətdar hadisə olmuşdur. Həmin abidənin alt təbəqələri “Neolit inqilabı”ndan xəbər verən ilk arxeoloji artefaktlar kimi qiymətləndirilmişdir. Ötən əsrin 60-80 illərində və yeni əsrin əvvəllərində Mil, Qarabağ və Muğan düzlərində, Gəncəçay hövzəsində, eləcə də Azərbaycanın digər bölgələrində aşkarlanan Şomutəpə, Qarğalartəpə, Töyrətəpə, Baba-

dərviş, Əliköməktəpə, Leylatəpə, Kamiltəpə, Şahtəpə, Göytəpə, Polutəpə və digər nadir abidələr Azərbaycanın Yaxın Şərqdə müstəqil qədim əkinçilik mərkəzlərindən biri olmasını sübuta yetirmişdir. Həmin abidələrin üzə çıxarılmasında və öyrənilməsində O.Həbibullayev, İ.Nərimanov, A.İessen, V.Əliyev, V.Baxşəliyev, F.Mahmudov, R.Arazova, T.Axundov, V.Mahmudova, Q.İsmayılzadə, N.Müseyibli, F.Quliyev, X.Alməmmədov, S.Aşurov, H.Cəfərov, A.Seyidov və başqalarının xidmətləri xüsusi ilə diqqətə layiqdir.

**Prof. Qüdrət İsmayılzadə**
*Baş redaktor*